**Audit**

***Mehdi Babayev***
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

**Kommersiya xərclərinin auditi**

Kommersiya xərcləri müəssisənin və ya fərdi sahibkarın istehsal və ya əldə etdiyi malın (hazır məhsulun) satılması ilə əlaqədar çəkdiyi xərclərdir.

Milli Mühasibat Uçotu Standartlarının tələbinə görə kommersiya xərcləri maliyyə hesabatlarında ayrıca əks olunmalı və açıqlanmalıdır. Belə ki, 1 №-li Kommersiya Təşkilatları üçün MMUS-da verilən hesablar planında kommersiya xərclərinin uçotunu aparmaq üçün 711 №-li «kommersiya xərcləri» hesabı müəyyənləşdirilmiş və maliyyə hesabatlarının tərkib hissəsi hesab edilən «mənfəət və zərər haqqında hesabat»da da maliyyə informasiyası kimi əks olunması nəzərdə tutulmuşdur.

Göründüyü kimi, kommersiya xərclərinin ayrıca açıqlanması sahibkar, mülkiyyətçi və digər istifadəçilər üçün mühüm informasiyadır. Kommersiya xərclərinin uçotu hər ay ayrı-ayrı xərc maddələri üzrə aparılmalıdır ki, bu da qeyri-istehsal məsrəflərinin təhlilinin təşkilində böyük əhəmiyyətə malikdir. Lakin bir çox müəssisələrdə aparılan audit zamanı kommersiya xərclərini səhv olaraq ya inzibati xərclərə, ya da satışın (xidmətin) birbaşa maya dəyərinə aid edirlər. Bu isə audit zamanı təhlillərin aparılmasında qeyri-dəqiqlik yaradır.

Bu halların baş verməməsini nəzərə alaraq oxucularımıza kommersiya xərclərinə aid edilə bilən əsas təsərrüfat əməliyyatlarını təqdim edirik:

· Müəssisənin marketinq xidməti ilə əlaqədar xərcləri (marketinq işi ilə bilavasitə məşğul olan işçilərin əməkhaqqı, sosial sığorta ayırmaları, material və digər xərclər).

· Reklam xərcləri, yəni kütləvi informasiya vasitələrində (televiziya, radio, dövri mətbu nəşrlər, kataloqlar və digər yayım vasitələrində) malın (işin, xidmətin) reklam edilməsi ilə əlaqədar xərclər.

· İctimaiyyətlə əlaqələrin qurulması məqsədilə tədbirlərin (konfranslar, dəyirmi masalar və s.) keçirilməsi, müxtəlif nəşrlərin hazırlanması, audio, video poqramların hazırlanması və efirdə yayımlanması xərcləri.

· Sərgilərin təşkili və ya sərgilərdə iştirakla bağlı xərclər (iştirak haqqı, ezamiyyə və s.).

· İstehsal olunan və ya əldə edilən malın (hazır məhsulun) taralaşdırılması və qablaşdırılması ilə bağlı başqa malsatanlardan alınan taraların silinməsi.

· Başqa xidmət göstərən təşkilatların həmin taralarla göstərdiyi qablaşdırma xidmətləri.

· Müəssisənin özünün tara sexinin hazırladığı taralarla bağlı xərcləri.

· Qablaşdırma ilə əlaqədar istifadə olunan materialların silinməsi.

· Taralaşdırma və qablaşdırma ilə əlaqədar işçi heyətinə ödənnilən əmək haqqı və sosial sığorta ayırmaları.

· Malların (hazır məhsulun) istehlakçıya (alıcıya) daşınması (çatdırılması) ilə əlaqədar olan nəqliyyat xərcləri.

· Malların nəqliyyat vasitəsinə yüklənməsi ilə əlaqədar olaraq dəmiryol stansiyasına, limana daşınması, onların vaqonlara, gəmilərə yüklənməsi xərcləri.

· Mal (məhsul) satışı ilə əlaqədar ezamiyyə xərcləri.

· Satışla əlaqədar digər vasitəçi təşkilatlara ödənilən xərclər.

Göstərilən əməliyyatlar üzrə çəkilən xərclər müvafiq hesabat dövründə «mənfəət və zərərlər» haqqında hesabatda əks olunmalıdır.

Araşdırmalar göstərir ki, audit zamanı kommersiya xərclərinin vergitutma məqsədləri üçün gəlirdən çıxılan xərclərə aid edilməsi ilə əlaqədar neqativ halların aşkarlanması istisna olunmur. Əsasən də marketinq, reklam, ictimaiyyətlə əlaqələr və satış vasitəçiləri ilə bağlı xərclərin həqiqətən gəlirin alınmasına bağlı olması yoxlanılmalıdır.

Bir daha vurğulayırıq ki, vəzifəli şəxslər tərəfindən kommersiya xərclərinin uçotda ayrıca aparılması mütləq qaydada təmin edilməli, maliyyə hesabatları ayrıca açıqlanmalı və istifadəçilərə təqdim olunmalıdır. Vergitutma məsələrində isə kommersiya xərclərinin tərkibindən gəlirin alınması ilə bağlı olan hissəsinin ayrılmasına diqqət yetirilməlidir.